# YENİYETMƏLİK VƏ GƏNCLİK DÖVRÜNDƏ DİN

***Elvin Rəcəbov,***
*Azərbaycan İlahiyyat İnstitutu*
*Dinşünaslıq ixtisasının magistrantı*
elvinrecebov97@mail.ru

## XÜLASƏ

Yeniyetməlik və gənclik dövrü öz xüsusiyyətlərinə görə insan həyatının digər yaş dövrlərindən xeyli fərqlənir. Həmçinin yeniyetmə və gənclərin dini düşüncə və davranışlarında da fərqliliklər mövcuddur. Bu məqalədə yeniyetmə və gənclərdə dini düşüncə və davranışlar qeyd olunmuşdur. Məqalədə islami aspektdə yeniyetmə və gənclərin dini düşüncə və davranışları da tədqiq olunmuşdur.

Məqalənin ilk hissəsində yeniyetmə və gənclik dövrlərinə xas olan psixi hallar təhlil olunur. Nəticədə, yeniyetmə və gənclərin çox həssaslıqla, şahidi olduqları hadisələrə hissi yanaşdıqları qeyd edilir. Bu dövrdə zehnin inkişaf etməsi nəticəsində yeniyetmələrin mücərrəd mövzular haqqında tez-tez düşündüyü, təhlil etdiyi və təqlidçilikdən uzaqlaşdıqları bildirilir.

Məqalənin ikinci hissəsində yeniyetmələrin və gənclərin dini düşüncə və davranışlarından bəhs edilir. Nəticədə, yeniyetmələrin dini mövzularda dərindən düşündüyü, təhlil etdiyi və uşaqlıq dövründəki təqlidçilikdən tamamilə uzaqlaşdığı bildirilir. Həmçinin yeniyetmənin uşaqlıq dövründəki antropomorfik Allah düşüncəsində olmadığı, hər şeydən münəzzəh, bənzəri və şəriki olmayan Allah düşüncəsinə sahibliyi vurğulanır. Bu dövrün digər xüsusiyyəti dini mövzularda şübhəyə düşməsi və uşaqlıq çağında təqlidi şəkildə qəbul edilən, dini düşüncələrin yenidən təhlil olunması bildirilir. Yeniyetməlik dövrünün digər xüsusiyyəti olaraq tövbə, peşmançılıq və dinəqayıdış vurğulanır.

Məqalənin üçüncü hissəsində islami baxımdan yeniyetmə və gənclərin dini düşüncə və davranışları təhlil olunur. Gənclik dövründəki dini düşüncələr İslamın əsas mənbələri olan Qurani-Kərim və hədislərdən nümunələrlə açıqlanmışdır. Nəticədə, islami mənbələrə görə gənclərin dini mövzularda çox həssas və meyilli olduqları vurğulanır, gənclər dini mövzularda izah axtardıqlarından, onlara dini mövzuların düzgün qaydada çatdırılması bildirilir.

**Açar sözlər:** *yeniyetməlik, gənclik, din, psixi hal, dini düşüncə və davranış, islami aspektdə gənclik.*

## Giriş

İnsan həyatı fiziki, zehni və psixi inkişafına görə müxtəlif dövrlərə ayrılır. Bu dövrlərin hər birində insanda fərqli psixi hal mövcud olur. Bu dövrlərin təsnifinə gəldikdə isə bir-birindən çox da fərqlənməyən müxtəlif bölümlərə təsadüf etmək mümkündür.

Təsnifləndirmədə ilk yer alan dövr uşaqlıq mərhələsidir. Uşaqlıq dövrü insan həyata göz açdıqdan 12 yaşadək olan zamanı əhatə edir. Uşaqlıq çağı özü də 0-2 yaş aralığını əhatə edən körpəlik; 2-6 yaş aralığını əhatə edən erkən uşaqlıq; 6-12 yaş aralığını əhatə edən son uşaqlıq mərhələsinə ayrılır (Sugarman 2001, 55). Daha sonra yeniyetməlik və gənclik dövrü gəlir. Yeniyetməlik dövrü insan həyatının 12-21 yaş aralığında olan müddəti əhatə edir. Yeniyetməlik dövrü də özü 3 mərhələyə ayrılır. Bu dövrlər ilk yeniyetməlik və ya yeniyetməliköncəsi adlanan 12-14 yaş aralığı; orta yeniyetməlik dövrü olan 15-17 yaş müddətini; son yeniyetməlik və ya gənclik dövrü adlanan 17-21 yaş aralığı kimi təsnif olunur. Bundan sonra 21 yaşdan 35-40 yaşadək olan müddəti əhatə edən yetkinlik dövrü gəlir. Yetkinlik dövründən sonra gələn orta yaş mərhələsi isə 40-60 yaş aralığını əhatə edir. Nəhayət, 60 yaşdan yuxarı insan həyatının "yaşlılıq dövrü" adlanan və ömrün son mərhələsi hesab edilən həyatı başlayır (Şentürk 1995, 70-79).

İnsan ömrünün hər bir yaş mərhələsində dinə münasibətin öz xüsusiyyətləri mövcuddur. İstənilən yaş mərhələsində insanın dinə münasibətində fərqliliklər müşahidə olunur. Bu da fərdin ümumi psixi, zehni və fiziki inkişafı ilə əlaqəlidir. Yeniyetməlik və gənclik dövrlərində insanın dinə münasibəti digər mərhələlərdən fərqlənir. Bu məqalənin əsas məqsədini yeniyetməlik və gənclik dövrlərindəki şəxsin dini düşüncə və davranışlarının tədqiq edilməsi təşkil edir.

Sözügedən mövzuda bir çox tədqiqatlar aparılmışdır. Məqalədə islami aspektdə yeniyetməlik və gənclik dövrlərində dinə münasibətin tədqiq edilməsi nəzərdə tutulur. Yazıda yeniyetmə və gənclərin dini düşüncə və davranışlarını başa düşmək üçün ilk öncə yeniyetməlik və gənclik çağlarına xas olan ümumi psixi hallardan bəhs edilir.

## 1. Yeniyetməlik və gəncliyə xas olan psixi hallar

Son uşaqlıq dövrü bitdikdən sonra, insan həyatında yeniyetməlik və gənclik mərhələsi başlayır. Bu dövrdə fərdin psixi vəziyyəti uşaqlıq dövrünə nisbətən xeyli dəyişir. Yeniyetmə şəxs həm fiziki, həm də psixi cəhətdən uşaqdan xeyli fərqlənir. Yeniyetməlik dövrünün yaş müddətinin təyin edilmə-

sində bəzi ixtilaflar mövcuddur; məsələn: bu mövzuda UNESKO yeniyetməlik mərhələsinin fərdin təhsil almağa başladığı və maddi cəhətdən asılı olduğu dövr olduğunu bildirir. Birləşmiş Millətlər Təşkilatı isə bu dövrün 12-25 yaş aralığı olduğunu bildirir.

Göründüyü kimi, yenə də bu mövzuda ixtilaflar çox cüzidir. Yeniyetməlik çağının yaş müddətində, həmçinin oğlan və qızlar arasında bir sıra fərqlər mövcuddur. Ümumi olaraq yeniyetməlik özü üç hissəyə ayrılır. Yeniyetməliyin ilk başlanğıcı qızlar üçün 11-14, oğlanlar üçün 13-15; yeniyetməliyin orta mərhələsi qızlar üçün 14-16, oğlanlar üçün 15-17; yeniyetməliyin son və ya gənclik hissəsi qızlar üçün 16-21, oğlanlar üçün 17-21 aralığındakı yaş müddətləri kimi təsnif olunur (Koç 2004, 233).

Yeniyetməlik çağının özünəməxsus psixi halları mövcuddur. Bu dövrə keçən şəxs, artıq daha çox həssas olur və öz hissləri ilə hərəkət edir, müəyyən hadisə qarşısında tez reaksiya verir. Onu qəzəbləndirən nəsnələrə qarşı öz hirsini cilovlaya bilməkdə çətinlik çəkir.

Sözügedən dövrün əsas xüsusiyyətlərindən biri də azadlıq istəyinin ortaya çıxmasıdır. Yeniyetmə, artıq heç kəsdən asılı olmayaraq öz qərarlarını verməyə çalışır, başqalarının ona müdaxilə etməsini bəyənmir. O, hər deyiləni qəbul etmək istəmir, təklif olunanları nəzərdən keçirir və qüsurlu bir nəsnə ilə qarşılaşdıqda, dərhal öz etirazı ilə münasibət bildirir. Bu dövrdə yeniyetmə daha çox qruplara üzv olmağa çalışır. Öz həmyaşıdları olan dostlarına xüsusi dəyər verərək, onların fikirlərinə münasibət bildirir (Öztürk, 6-8). Bu dövrdə yeniyetmənin düşüncə və hissləri tez-tez dəyişir. Yeniyetmə qorxu, qəzəb kimi hisslərini öz üz cizgiləri, jestləri ilə dərhal izhar edir, bəzi hisslərini isə yazılarla ifadə edir, daha çox sevgi kimi duyğularını gizli saxlayır.

Yeniyetməlik dövrünün daha bir xüsusiyyəti isə gəncin həyəcanlanmasıdır. Bu təlaşa səbəb isə onun qarşılaşdığı yeni hadisələrdir. Yeniyetmə həyəcanını gizlədə bilmir, əksər hallarda təlaşını açıq şəkildə büruzə verir. Stanley Hall bu dövrü tədqiq edən şəxslərdən biridir. O bildirir ki, yeniyetmə psixi halları ilə uşaqlıq dövründən kəskin şəkildə fərqlənir. Onda uşaqlıq dövründən tamamilə fərqli bir kimliyin formalaşdığı müşahidə edilir. Yeniyetmələr xəyal qurmağa daha həvəsli olurlar. Onlar reallaşdırmaq istədikləri arzu və istəklərini öz xəyallarında canlandırırlar. Yeniyetmələrin gələcək haqqında düşüncələri yüksək olduğundan, çox sayda xəyallar qururlar (Kılıç 2009, 113-114). Yeniyetməlik dövründə şəxs özünü böyük hesab edir. Daim öz hərəkətləri ilə böyüklərə bənzəməyə çalışır. Onunla uşaq kimi davranılmasını, özünün uşaq kimi hər bir məsələdən uzaq tutulmasını qəbul etmir. Ona uşaq kimi baxılması pis təsir edir və qəzəb hissinin yaranmasına səbəb olur. Bu dövrdə, artıq yeniyetmə özünə diqqət yetirir. Yeniyetməlik dövründə fərdin artıq şəxsiyyəti formalaşır. Ona qarşı edilən hər bir

hərəkəti, başqalarının onun haqqında fikirlərini nəzərə alaraq özünü dəyərləndirməyə çalışır (Seyidov, Həmzəyev 2007, 472-475).

Sözügedən dövrdə yeniyetmənin şəxsiyyətinin formalaşmasına bir çox amil təsir göstərir. Bunlara fərdin fiziki, zehni, psixi inkişafını misal göstərə bilərik. Yeniyetmə bu dövrdə cəmiyyətdə, ailəsində gördüyü hadisələrdən tez təsirlənir və bunlar da onun şəxsiyyətinin formalaşmasına mühüm təsir göstərir. Bəzi yeniyetmələrdə ətrafdan aldığı ziddiyyətli təsirlərdən şəxsiyyət formalaşmasında problem yaranır. Yeniyetməlik dövründə, artıq fərd təkcə maddi düşünmür, onda mücərrəd düşünmə ön plana çıxır. Yeniyetmə, artıq daha çox mücərrəd düşündüyündən, rahat şəkildə tez-tez xəyallar qurur və uşaqlıq dövründə maraqlanmadığı metafizik mövzulara daha çox həvəs göstərir. Piaget yeniyetməlik dövrü mövzusunda bir çox tədqiqatlar aparmış şəxsdir. Onun bu araşdırmalarından gəldiyi qənaətə görə, mücərrəd düşünmənin inkişafı ilə yanaşı, yeniyetmə, artıq yetkinliyə hazır olur və şəxsiyyətin formalaşmasında, bir çox məfhumları başa düşməkdə böyük irəliləyiş əldə etmiş olur (Gürsu 2011, 18-23).

Yeniyetmənin həyatına önəmli təsir edən müəssisələrdən biri məktəbdir. Məktəbə gedən yeniyetmə müəllimlərini özünə nümunə götürür, onların hərəkətlərinə diqqət yetirir. Yeniyetmələr, həmçinin küsəyən olurlar. Onlara qarşı iradlar, səhvlərinin sərt şəkildə bildirilməsi onların tez bir zamanda küsməsinə və inciməsinə səbəb olur. Müəllimlərin yeniyetmələrdən gözləntilərinin qarşılığı olaraq, müəllimin də onlarla gözəl davranmasını gözləyirlər. Əks halda, etirazlarını bildirirlər. Yeniyetmələr, əsasən, bu dövrdə tənbəllikləri ilə də seçilirlər. Onlarda dərs çalışmağa olan marağın azalması müşahidə edilir. Bu isə yeniyetmələrin enerjilərinin fiziki böyüməyə sərf olunmasından qaynaqlanır.

Yeniyetməlik dövrünün sonunda – gənclik dövründə fərdin yenidən psixi davranışlarında dəyişikliklər müşahidə olunur. Bu dövr 18-21 yaş aralığını əhatə edir. Yeniyetməliyin ilk və orta illərində həssaslığı ilə seçilən, hisslərini cilovlaya bilməyən yeniyetmə gənclik dövründə, yetkinliyə keçid dövründə, artıq hadisələri rasional şəkildə qiymətləndirməyə çalışır, hisslərini cilovlamağı bacarır (Kulaksızoğlu 2004, 68-130). "Gənclik dövrü" adlanan bu yeniyetməliyin bitdiyi dövrdə fərd, artıq daha ətraflı düşünərək gələcəyi haqqında planlar qurmağa başlayır. Bu planlara onun təhsili, ailə qurması və bir çox şəxsi həyatı ilə bağlı məsələlər daxildir. Gənc, artıq qarşılaşdığı hadisələrə yetkin şəxs kimi münasibət bildirir, öz hisslərinin qarşısına düşüncəsini keçirə bilir. Bu dövr haqqında bir çox şəxs tədqiqatlar aparmışdır. Bunlardan biri də Karl Qustav Yunqdur. O da gənclik dövrünü, artıq fərdin uşaqlıq bağlılığının bitdiyi və gələcək haqqında yetkin şəxs kimi daha rasional düşündüyü mərhələsi kimi xarakterizə edir. K.Q.Yunq gəncin real həyatın tələbləri qarşısında daha qərarlı olduğunu bildirir (Gürsu 2011, 14).

## 2. Yeniyetməlik və gənclik dövründə din

Yeniyetməlik dövrünə çatan şəxsin dini düşüncələri uşaqlıq dövründən xeyli fərqlənir. Yeniyetmələr uşaqlıq dövrü ilə müqayisədə dini mövzularda daha dərin düşüncələrə sahib olurlar. Yeniyetmənin dini düşüncəsinin formalaşmasında onun ətrafının çox mühüm təsiri vardır. Ətrafında şahidi olduğu hadisələr zehnində dini mövzuda suallar yaradır. Yeniyetmə şəxs uşaqlıq dövründən fərqli olaraq, artıq dini mövzularda mücərrəd, metafizik düşünməyi bacarır. Uşaq vaxtı antropomorfik Allah düşüncəsinə malik olan fərd yeniyetməlik dövründə, artıq hər şeydən münəzzəh, bənzəri və şəriki olmayan Allah düşüncəsinə sahib olur (Peker 2014, 171-172).

Uşaqlıq dövründə fərd hər deyiləni təhlil etmədən qəbul edir. Yeniyetməlik və gənclik dövrlərində insanda baş verən zehni, psixoloji, fiziki dəyişikliklər ucbatından yeniyetmə dinlədiyi hər bir sözü asanlıqla qəbul etmir, eşitdiklərinə şübhə ilə yanaşır. Bu özünü dini mövzularda da göstərir. Yeniyetmə uşaqlıq dövründə onda formalaşmış ilkin dini düşüncələri gözdən keçirir və əvvəl qəbul etdiklərinə şübhə və tərəddüdlə yanaşır.

Yeniyetməlik dövrü hisslərin zirvədə olduğu mərhələdir. Bu da yeniyetmənin dini mövzularda da öz hisslərini bildirməsi və ona məntiqsiz gələnə etiraz bildirib, tutarlı hesab etdiyi düşüncələri qəbul etməsinə səbəb olur. Uşaqlıq dövründə təkcə valideynlərinin dediklərini əsas götürən uşağın yeniyetməlik dövründə ətrafı genişlənir. Yeniyetmə bu dövrdə yeni insanlarla, dostlarla qarşılaşır. Bu səbəbdən, dostların da, ətrafında olan şəxslərin də dini düşüncələri yeniyetmənin diqqətini çəkir. Bütün bunlar onun zehnində dini mövzularda qarışıqlıq yaradır və öz etiqadını yenidən gözdən keçirir. Bəzən bu dini şübhələrin yaranmasına özünü dindar kimi təqdim edən şəxslərin düzgün olmayan hərəkətləri də səbəb olur. Gəncdə mövcud olan bu dini mövzularda boşluqlardan bəzi şəxslər məharətlə istifadə edirlər. Bu səbəbdən, yeniyetmədə mövcud olan şübhələrin din sahəsində sağlam düşüncə və etiqad sahibi olan şəxs tərəfindən düzgün və məntiqli şəkildə cavablandırılması və yeniyetmənin düzgün istiqamətləndirilməsi lazımdır. Bütün bu sadalanan şübhə və tərəddüdlər, yeniyetmənin öz inancını sorğulaması gəncliyin sonu və yetkinliyə keçid dövrünədək davam edir. Şübhələr, bəzən başqa mənfi təsirlərin təzahürü ilə gəncin etiqadında problem yaratsa da, çox vaxt onun öz etiqadını düzgün şəkildə təhlil etməsi, gələcəkdə həmin şəxsdə sağlam etiqadın formalaşması və fərdin gələcəkdə təqlidi imandan uzaq, sağlamdüşüncəli bir dindar şəxs olması ilə nəticələnir (Hökelekli 2001, 270-273). Yeniyetməlik dövründə şübhələrin və tərəddüdlərin baş verməsi daha çox Qərb ölkələrində müşahidələrdə özünü göstərmişdir. Bu məqsədlə, Qərbdə bir çox psixoloji

sorğular aparılmışdır. Qərbdə aparılan bu sorğular nəticəsində yeniyetməlik dövründə oğlanların 75%-də, qızların 50%-də dini şübhələrin mövcud olduğu müşahidə edilmişdir (Vergote 1990, 588-589). Yeniyetməlik və gənclik dövrü fərdin şəxsiyyətinin formalaşmağa başladığı dövr kimi tanınır. Yeniyetməlik dövründə insan zehnini bir çox suallar məşğul edir. Bu suallar şəxsiyyətin formalaşmasına önəmli və mühüm təsir göstərir. Gənc suallarının cavabını özü tapa bilmədikdə, bu sualları din cavablandırır. Dinin düzgün şəkildə başa düşülməsi insan şəxsiyyətinin düzgün şəkildə formalaşmasına təsir göstərir. Ümumilikdə onu demək olar ki, insan şəxsiyyətinin formalaşmasına din çox böyük təsir edir. Həmçinin din insan şəxsiyyətinə dəyəcək ziyanların da qarşısını alır və yüksək əxlaqi keyfiyyətlərə, sağlam düşüncəyə sahib bir şəxsiyyətin formalaşmasında mühüm təsirə malikdir (Orhan, Dağcı 2015, 124-128).

Yeniyetməlik və gənclik dövrünün digər xüsusiyyəti dinə qayıdış, peşmançılıq və tövbədir. Bu isə daha çox insan həyatının 17-21 yaşlarında özünü büruzə verir. Bütün bu sadalanan yaşlar insan həyatında, insanda mühüm dəyişikliklərin baş verdiyi yaşlardır. Bütün bu dəyişikliklər həm insan zehnində, həm fiziki vəziyyətində özünü əks etdirir (Gündüz 2010, 93). Yeniyetməliyə keçid ilə birlikdə bu dəyişmələr başlayır. Dəyişmələr nəticəsində gənc, artıq günahlarla üzləşir. Bütün etdiyi səhvlər onu sarsıdır.

Yeniyetmə şəxsin bir ideal MƏN düşüncəsi vardır. Özünü dinin buyurduğu kimi günahdan uzaq, bir ideal şəxs kimi görmək istəyir. Buna baxmayaraq, nəfsi istəklər ona qalib gəldikdə, özünü günahkar hiss edir və bu səbəbdən, daxilində rahatlıq tapa bilmir. Bununla barışmayan gənc tez-tez tövbə edib, bağışlanmaq istəyir. Hər dəfə keçmişində etdiyi səhvləri xatırlayıb, vicdan əzabı çəkir. Çıxış yolunu tövbə etməkdə tapır ki, bu ona rahatlıq, aramlıq bəxş edir. Bu səbəbdən, gəncin içində bir çaxnaşmanın, mübarizənin getdiyini söyləmək mümkündür. Bütün bu daxili çaxnaşmaların fəsadını gənc tövbə etməklə aradan qaldırır. Özünün dini məsuliyyətini tam şəkildə yerinə yetirmədiyini görən gənc tez-tez peşmançılıq hissi keçirir və günahlarını Allah qarşısında etiraf edərək həyatında yeni səhifə açır (Hökelekli 2001, 273-280).

Yeniyetməlik və gənclik dövründə ibadət və dualar da uşaqlıq dövründən fərqli olaraq daha şüurlu və hissi olaraq yerinə yetirilir. Uşaqlar dua və ibadət edərkən daha çox ətrafındakı böyüklərə baxaraq, onların ibadət və dua formalarını təqlid edirlər. Yeniyetmə və gənclərdə ibadət zamanı gəncin hissləri daha çox rol oynayır. Gənclərin özlərinin ruhi ehtiyacları mövcuddur. Gənclər özlərini mənəvi cəhətdən ac hiss edirlər. Bu ehtiyacları isə ibadət ilə aradan qaldırırlar. İbadət edərkən özlərini rahat və ruhi aramlıq içində hiss edirlər. Beləliklə, insan yeniyetməlik dövründə “böyüklər və ətrafı ibadət edir deyə” deyil, ibadətə ehtiyacı olduğu üçün ibadətə keçir. Bunu da vurğulamaq

lazımdır ki, inananlar ibadət edənlərə nisbətən çox olurlar. İnananların hamısı ibadət etmir. Yenə də yeniyetməlik dövründə ibadət edənlər çoxluq təşkil edirlər. İbadətlərin içində isə daha çox oruc ibadəti üstünlük təşkil edir.

Oruc ibadətinin ardınca gənclər namaz ibadətlərini yerinə yetirirlər. İbadətlərlə yanaşı, dualar da hər bir yaş dövründə olduğu kimi, gəncin həyatının ayrılmaz hissəsidir. Aparılan tədqiqatlara görə, yeniyetmə və gənclik dövrlərində olan insanların əksəriyyəti dua edir. Dualarında isə Allaha layiqli şəkildə bəndə olmaq, günahlardan və mənfi təzahürlərdən uzaq durmaq, şəxsi həyatlarında və təhsil həyatlarında uğur qazanmaq və bir çox səmimi istəklər yer alır. Bu qeyd olunan faktlar Türkiyədə aparılmış tədqiqatlar nəticəsində ortaya çıxmışdır. Bu dövrdə gənclər daha çox öz sözləri ilə Allaha dua edirlər. Gənclərin bəziləri xüsusi günlərdə məscidlərdə dua edirlərsə, bəziləri zamandan, məkandan asılı olmayaraq ehtiyac duyduqları an dua edirlər (Koç 2005, 80-84). Bu mövzuda Qərbdə çox sayda tədqiqat və sorğular aparılmışdır. Tədqiqatların biri olan "Gallup anketi" haqqında Benson və bəzi şəxslər vurğulayır ki, yeniyetmələrin əksəriyyəti dini inanca sahibdir və ibadətlə məşğul olur. Onların əksəriyyətinin, heç olmasa, müəyyən vaxtlar ərzində dua etdiklərini bildirirlər. Digər bir sorğudan isə amerikalı gənclərin əksəriyyətinin ibadətlərə, dualara önəm verdiyi və bu mərasimlərdə tez-tez iştirak etdikləri ortaya çıxır. Gənclərin əksəriyyətinin hər gün, bəzilərinin isə həftədə, ayda, heç olmasa, bir dəfə dua etdiyi bildirilir (Levenson, Aldwin, Demello 2013, 301-302) .

Yeniyetməlik dövründə edilən ibadətin insan şəxsiyyətinin formalaşmasına müsbət təsiri var. Yeniyetməlik dövründə ibadət edən və etməyən şəxslərin gələcək həyatının müqayisəsindən bu nəticəyə gəlmək olar. Gənclikdə edilən ibadətlər insan şəxsiyyətinə məsuliyyət aşılayır. İbadətlərini yerinə yetirən yeniyetmə nizam-intizama, məsuliyyətə vərdiş edir. Həmçinin, bu yaşda ibadət edən şəxslərin daxilindəki eqoizm, kibr nəfsi kimi hissləri onlardan uzaqlaşır. Həyatlarını ibadətlə nizama salan yeniyetmələr özlərini tez-tez sorğu-suala çəkib, hesabat verirlər. Həmçinin, ibadətlə yanaşı, duanın da yeniyetmədə şəxsiyyət formalaşmasına müsbət təsir göstərdiyi təsdiqlənir. Bu mövzuda Carrel bildirir ki, şüurlu şəkildə yeniyetmələrin etdiyi dualar onlarda sağlamruhlu şəxsiyyətin formalaşmasına təsir göstərir. Dua edən yeniyetmə daxili iztirablardan xilas olur və dualar ona bir rahatlıq, aramlıq bəxş edir. Bu vəziyyətdə yeniyetmə depressiyadan uzaq olur, yüksək mənəviyyata malik şəxs kimi yetişir. Yeniyetməlik dövründə tez-tez dua edən fərd insanlara qarşı daha çox şəfqətli olur və eqoizmdən kənarlaşır. Bütün bunlardan belə nəticəyə gəlmək mümkündür ki, istər dua, istərsə də ibadət yeniyetmənin şəxsiyyətinin formalaşmasına olduqca müsbət təsir göstərir (Koç 2005, 85-88).

Yeniyetməliyin sonu, gənclik və yetkinliyə keçid dövründə isə yeniyetməliyin əvvəllərinə nisbətən fərddə çox böyük psixoloji dəyişikliklər baş verir. Bu, gəncin dini düşüncələrində də özünü göstərir. Yeniyetməliyin əvvəllərində dini mövzulara şübhə və hissi yanaşan fərddə, artıq dini düşüncələr sabitləşməyə başlayır. Gənc dini mövzularda hissi davranışların yerinə, artıq bir yetkin şəxs kimi rasional düşünür. Uşaqlıq dövründəki ibtidai dini bilikləri ilə yeniyetməlik dövründə əldə etdiyi düşüncələri təhlil edərək sabit dini düşüncə qazanmağa çalışır. Bu dövrdə yenə də gəncin dini düşüncələrinin formalaşmasına müəllimləri, yaxın dostları, nümunə götürdüyü şəxslər mühüm təsir göstərir. Daha çox dini həyatını özünə nümunə seçdiyi dindarların gəncə mühüm təsiri olur. Bu dövrün sonuna yaxın gənc dini mövzuda bir qərara gəlir və bu qərara uyğun sabit etiqada sahib olur (Peker 2014, 174-175).

## 3. İslami aspektdə yeniyetməlik və gənclik dövründə din

İslami baxımdan bu dövrlərə nəzər salsaq görərik ki, həddi-büluğ ilə başlanan yeniyetməlik dövrü gəncliyin başlanğıcı hesab edilir. Həddi-büluğa çatdıqda fərddə həm fiziki, həm də ruhi, psixi dəyişikliklər baş verir. Məhz bu səbəbdən, İslam dini baxımdan həddi-büluğa çatan şəxs dini mükəlləfiyyətlər daşımağa başlayır. Bir çox dini hökmlər ona şamil olunmağa başlanır (Bardakoğlu 1992, 413-414).

İslami baxımdan gənclik dövründə gənclər mücərrəd düşünməyə başlayırlar və dini mövzular haqqında dərindən fikirləşirlər. Bir çox dini məfhumları, artıq dərk etməyə başlayırlar. Allah, axirət və əvvəllər qavraya bilmədikləri bir çox mövzu haqqında düşünürlər. Gənclərin, hətta cəmiyyətin düzgün olmayan dini düşüncələrinə qarşı çıxdıqları, bu səbəbdən, cəmiyyət tərəfindən xaric edildikləri, cəzalandırıldıqları tarixdən və dini mənbələrdən bizə məlum olur. Buna misal kimi, Kəhf əshabını nümunə göstərmək mümkündür ki, onlar bütpərəst cəmiyyətdə yaşamalarına baxmayaraq, bu cəmiyyətdən fərqli olaraq Allahın vahidliyinə, birliyinə etiqad bəsləmiş və bu səbəbdən də təqib olunmuşlar. Məcburiyyətdən isə mağarada gizlənmişlər. Buradan da məlum olur ki, həmin bu gənclik dövründə olan şəxslər cəmiyyətə qarşı çıxaraq, Allaha iman gətirmişlər (Özdemir, Kavak 2014, 1218-1219). Bu barədə Qurani-Kərimin "Kəhf" surəsində belə buyurulur:

"*Biz onların əhvalatını haqq olaraq sənin üçün açıqlayırıq; Onlar Pərvərdigarlarına iman gətirmiş cavanlar idilər ki, Biz onların hidayətini artırdıq*" (Əsədzadə 2014, "Kəhf", 13).

"Kəhf" surəsindəki bu gənclər haqqında olan qissədən məlum olur ki, gənclik dövründə imanın dəyəri Allah qatında çox dəyərlidir. Bu qissədən də

göründüyü kimi, gənclər öz nəfsi istəklərindən əl çəkib, rahatlığı və mənəvi aramlığı imanda görürlər. Beləliklə, məlum olur ki, onlar təkcə öz hissləri ilə hərəkət etmirlər. Rasional olaraq qərar verib yaşadıqları dövrün azğınlığına qarşı çıxırlar. Gənclik dövrünün xüsusiyyəti olan dəlil axtararaq, onlara məntiqsiz gələn bütpərəstliyə üsyan edib, tək Allaha iman gətirirlər. Bu da gənclik dövründə insanın təqlidi imandan uzaqlaşmasını və inanclarına əsas axtarmaqlarını göstərir. Buna isə həmin bu surədəki bu qissədən olan digər bir ayəni dəlil olaraq göstərmək olar (Erkut 2018, 41):

*"Bu, bizim qövmümüzdür, onlar Allahdan başqa, digər məbudlar seçmiş-dilər. Nə üçün (bu işlərinə) aşkar dəlil gətirmirlər? Allahın adına yalan qoşandan daha zalım kim ola bilər?!"* (Əsədzadə 2014, "Kəhf", 15).

Bu dövrdə gənclərin ibadətə daha çox bağlı olduqları və dinəmeyilli ruhda olduğu görünür. İslamın ilk yayılma dövründə də Peyğəmbər (s.ə.s.) dəvətinə qoşulanların əksəriyyəti gənclər olmuşlar. Gənclər Peyğəmbərin çağırışna daha çox qoşulurdular. Həmçinin, bu dövrdəki gənclər ibadətlərə də çox vaxt ayırırdılar. Bu da gənclərin dinə və ibadətə qarşı necə həssas olduqlarını göstərir (Özdemir, Kavak 2014, 1223-1225).

Yeniyetməlik və gənclik dövründə gənclərə din təlimi və tədrisi mühüm-dür. İslam dini də bunu təşviq etməkdədir ki, İslam mənbələrində bir çox nümunəyə rast gələ bilərik. Həmçinin, gənclik dövründə dini inancın gənclərə öyrədilməsi xüsusi olaraq vurğulanır. Bu inancları gənclər təqlidi olaraq bilməməli, öz şüur və idrakları ilə təfəkkür edib, dərk edərək öyrənməlidirlər. Sözügedən dövrdə psixoloji vəziyyətlərinə uyğun olaraq çaşdırıcı suallar verə bilərlər ki, bu həm də onların zehni inkişafı ilə bağlıdır. Gəncin bu sualları normal qarşılanmalı və cavablandırılmalıdır. Fərdin bu cür etiqadını dərindən dərk edə bilməsi onun gələcək dini düşüncələrinin sağlamlığı üçün çox faydalıdır. Gəncin zehnində şübhə və tərəddüdlər ortadan qalxır. Gələcəkdə onu yanlış düşüncələr öz təsiri altına ala bilmir (Dehabadi, Hüseynizade 2013, 140-141). Buna nümunə olaraq bir hədisin məzmununu misal göstərmək olar: bir gənc Peyğəmbərin (s.ə.s.) yanına gəlib ondan zina etmək üçün icazə istəyir. Buna Peyğəmbərin (s.ə.s.) yanında olanlar çox sərt reaksiya versələr də, Həzrət ətrafını sakitləşdirir və həmin gəncə qarşı çox mülayim davranır. Gəncin sualını təmkinlə qarşılayan Rəsulullah (s.ə.s.) ona zinanın pis bir iş olduğunu elə şəkildə izah edir ki, gənc zinanın yaxşı olmadığını dərk edir və bundan sonra zina etmək haqqında düşünməkdən belə çekinir. Bununla da həmin gənc zehnini məşğul edən şübhələrdən azad olur və daha sağlam etiqada yiyələnir (Reyşəhri, 6-7). Bu mövzuda daha bir hədis isə İmam Əlidəndir (ə.s.). İmam Əli (ə.s.) bu hədisdə gənclərə dini öyrənmək barəsində müraciət edərək belə buyurur:

*"Ey Gənclik! Şərəf və əxlaqi dəyərlərinizi ədəb və tərbiyə ilə mühafizə edib, dininizi bilik ilə qoruyun"* (Dehabadi, Hüseynizade 2013, 141).

Bu dövrdə mühüm olan məsələlərdən biri də gənc şəxsə dinin düzgün çatdırılmasıdır. Bəzən gənclərə dinin yalnız müəyyən çərçivəyə aid ibadətlər olduğu düşüncəsi mənimsədilir. Bu səbəbdən, gənclər iş görmək, dərs öyrənmək və bir sıra işləri dindən ayrı kimi görürlər. Gənclərə həyatlarının bütün sahələrində gördüklərinin dinə aiddiyyəti olduğunu və bu işləri düzgün yerinə yetirdikdə, bu işlərin də özünün ibadət olduğunu bildirmək lazımdır. Buna biz hədis mənbələrində də rast gələ bilərik. Peyğəmbərdən (s.ə.s.) bir şəxsin ailəsi üçün, valideynlərinə xidmət üçün ruzi qazanmasının özünün ibadət olması məzmununda hədis mövcuddur. Bunlardan başqa bu, dövrün dini təlimi ilə bağlı İslam mənbələrində gənclik dövründə Qurani-Kərimin öyrənilməsi xüsusi olaraq tövsiyə olunur. Bunun gənclərin gələcək həyatına xüsusi təsiri olacağı vurğulanır. Qurani-Kərimlə əxlaqını, həyatını formalaşdıran gəncin ruhuna, Qurani-Kərim böyük müsbət təsir göstərər və gəncin mənəviyyatını zənginləşdirər (Dehabadi, Hüseynizade 2013, 137-140). Bu mövzuda bir çox hədis mövcuddur ki, onlardan biri də İmam Sadiqin (ə.s.) buyurduğu bu hədisdir:

*"Hər kəs cavanlığında Quran öyrənsə, elə bil ki, əti və qanı onunla yoğrulur. Allah-Taala onu hörmətli mələklərlə yoldaş edər. Qiyamət günü Quran onun qoruyucusu olar"* (Reyşəhri, 33).

## Nəticə

Nəticə olaraq qeyd etmək mümkündür ki, yeniyetməlik və gənclik dövrünü, onu digər insan həyatının dövrlərindən fərqləndirən çox sayda xarakterik xüsusiyyətləri mövcuddur. Yeniyetmələrə və gənclərə xas olan psixi hallar kimi, onların bu dövrdə hadisələrə qarşı həssas olduqlarını, rasional davranmaqdan çox emosional davrandıqlarını qeyd etmək mümkündür. Yeniyetmələrin ruhi vəziyyəti tez-tez dəyişir. Bu dövrdə, həmçinin yeniyetmədə sürətlə fiziki inkişaf baş verir. Bu fiziki inkişaf yeniyetmənin psixi inkişafına öz təsirini göstərir.

Yeniyetmənin psixi vəziyyəti bütün bu onun dini düşüncə və davranışlarına da təsir göstərir. Yeniyetməlik və gənclik dövrlərində insan dini mövzularda həssas olur. Təqliddən uzaqlaşmağa başlayır. Uşaqlıq dövründə dini mövzularda onda formalaşan inancını təhlil edir. Dini məsələlərə şübhə ilə yanaşmağa başlayır, bir axtarış içində olur. Həmçinin, tez-tez özünü günahkar hiss edir. Mücərrəd düşünmə qabiliyyəti gənc insanda tam formalaşır. Yeniyetməliyin sonunda, gənclik dövründə isə artıq gənc emosionallıqdan uzaqlaşır və rasional düşünməyə başlayır. Dini mövzularda da sabit fikrə

gəlməyə başlayır. Yeniyetməliyin əvvəlindəki çaxnaşmalı düşüncələr, artıq sona çatmağa başlayır. Fərdin bu mərhələdə dini düşüncəsi necə formalaşırsa, insan həyatının qalan dövrlərinə də mühüm təsir göstərir.

İslami baxımdan yeniyetməlik və gəncliyə baxdıqda, insanın bu dövrdən başlayaraq dini mükəlləf hesab edildiyi nəzərə çarpır. Həmçinin, Qurani-Kərimdə də gənclərin dini mövzularda dəlil axtarışında olduqları və onlara məntiqsiz gələn dini düşüncələri qəbul etmədikləri bildirilir. Gənclərin dini mövzuları düzgün şəkildə dərk etmələri, dini mövzularda zehinlərindəki boşluqların aradan qaldırılması, sağlam dini düşüncəyə sahib olmaları tövsiyə olunur.

## ƏDƏBİYYAT

Bardakoğlu Ali. (1992). “Buluğ”. İstanbul: TDV İslam ansiklopedisi. c. 6. (s. 413-414)

Dehabadi M.Ali, Huseynizade S.Ali. (2013). İslami açıdan gençlik psikolojisi. Çeviri: Hasan Bedel. El-Mustafa yayınları.

Erkut Abdülkadir. (2018). “İnancı kuşanan gençler”. Diyanet aylık dergi. (s. 40-41)

Əsədzadə Eldar. (2014). Qurani-Kərimin ərəbcəsi və Azərbaycan dilinə tərcümə və şərhi.

Gündüz Turgay. (2010). “Ergenlik dönemi din eğitimi”. İstanbul: Tükiye İlahiyat tedrisatıına yardım eden dernekler federasyonu. (s. 45-62)

Gürsu Orhan. (2011). “Ergenlik döneminde psikolojik sağlık ve dindarlık ilişkisi”. Konya: T.C. Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü felsefe ve din bilimleri ana bilim dali din psikolojisi bilim dalı.

Hökelekli Hayati. (2001). Din psikolojisi. Ankara: Türkiye diyanet vaqfı yayınları.

Kılıç Aysel. (2009). “Gelişim dönemleri ve ergenlerde ruhsal sorunlar”. İstanbul: Davranış bilimleri lisans tezi.

Koç Mustafa. (2006). “Din psikolojisi açısından ergenlik döneminde dini yaşam”. Diyanet ilmi dergi. (s. 7-32)

Koç Mustafa. (2005). “Din psikolojisi açısından ergenlik döneminde dua ve ibadet psikolojisinin gelişimi”. Ekev Akademi dergisi. (s. 76-88)

Koç Mustafa. (2004). “Gelişim psikolojisi açısından ergenlik dönemi ve genel özellikleri”. Uludağ Universitesi Sosyal bilimler enstitütüsü dergisi.

Kulaksızoğlu Adnan. (2004). Ergenlik psikolojisi. İstanbul: Remzi Kitabevi.

Levenson Mıchael R, Aldwin Carolyn M, Demello Mıchelle. (2013) Din ve Maneviyat psikolojisi, temel yaklaşımlar ve ilgi alanları. Ergenlikten orta yetişkinliğe dini gelişim. Çeviri editörü: Ali Ayten, İhsan Çapcıoğlu.Phoenix yayınevi.

Orhan Filiz, Dağcı Abdullah. (2015). "Ergenlikte dini kimliğin inşası: Sosyal öğrenme kuramı açısından bir değerlendirme". Gümüşhane Üniversitesi İlahiyat fakültesi dergisi. c. 4. (s. 116-132)

Özdemir Şuayip, Kavak Rahime. (2014). "Kuran ve hadislerde gençlik dönemi özellikleri". Ankara. (s. 1216-1225)

Öztürk Mücahit. "Ergen psikolojisi". Sosyal bilimler konferansları.

Peker Hüseyin. (2014). Din psikolojisi. İstanbul: Çamlıca yayınları.

Reyşəhri Məhəmmədi. "Gənclərin hikmətnaməsi". Tərcümə edən: Tofiq Əsədov.

Seyidov S.İ., Həmzəyev M.Ə. (2007). Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik. Bakı.

Sugarman Leonie. (2001). "Life-span Development Frameworks, Accounts and strategies". Psychology Press Ltd.

Şentürk Habil. (1995). "Dini gelişim psikolojisi". Diyanet ilmi dergi. (s. 63-82)

Vergote Antoine. (1990). Ergenlikte din. Çeviri: Erdoğan Fırat. Ankara Universitesi İlahiyat fakültesi dergisi. c. 24. (s. 584-592)

***Эльвин Раджабов***

# РЕЛИГИЯ В ПОДРОСТКОВОМ ПЕРИОД И ЮНОСТИ

## РЕЗЮМЕ

Подростковый период и юностьсильно отличаются от других периодов человеческой жизни по своим характеристикам. Существуют также различия в религиозных мыслях и поведении подростков и молодежи. В этой статье изложены религиозные мысли и поведение подростков и молодежи. В татьяе также исследуются религиозные мысли и поведение подростков и молодежи в исламском аспекте.

В первой части этой статьи анализируются психологические ситуации, характерные для подростков и молодежи. В результате было выявлено, что подростки и молодые люди очень чувствительны и эмоционально относятся к событиям, свидетелями которых они являются. В результате развития ума в этот период подростки часто задумываются об абстрактных проблемах, анализируют и отстраняются от подражания.

Вторая часть статьи посвящена религиозному мышлению и поведению подростков и молодежи. В результате –было отмечено, что подростки глубоко задумывались о религиозных проблемах, анализировали их и полностью отдалялись от периода подражания в период детства. ПТакже подчеркивается, что у подростков нет антропоморфического представления о Боге как в период детства, иони имеют представление о Боге, который является всеобъемлющим, не имеет подобного. Еще одна особенность у подросткового возраста - раскаяние, сожаление и возвращение к религии.

В третьей части статьи анализируются религиозные мысли и поведение подростков и молодежи с точки зрения ислама. Религиозные мысли в период молодости показаны на примерах из Священного Корана и хадисов, которые являются основными источниками ислама. В результате, согласно исламским источникам, молодые люди очень чувствительны и склонны к религиозным проблемам, а поскольку молодые люди ищут разъяснений по религиозным вопросам, нужно правильно доводить до них религиозные знания.

***Ключевые слова:*** *подростковый период, юность, религия, психическое состояние, религиозное мышление и поведение, юность в исламском аспекте.*

***Elvin Rajabov***

## RELIGION IN PERIOD OF ADOLESCENCE AND YOUTH


## ABSTRACT

Period of adolescence and youth differs greatly from other periods of human life according to their characteristics. There are also differences in the religious thoughts and behaviors of adolescents and young people. In this article, religious thoughts and behaviors are stated in adolescents and young people. this article also explores the religious thoughts and behaviors of adolescents and young people in Islamic aspect.

In the first part of this article, psychological situations specific to adolescence and youth are analyzed. As a result, it was stated that adolescents and young people are very sensitive and have emotional approach to the events they witness. Due to the development of the mind during this period, adolescents frequently think about abstract issues, analyze them and quit imitation.

The second part of the article deals with religious thoughts and behaviors of adolescents and young people. As a result, it was reported that young people thought deeply about religious issues, analyzed them, and completely distanced themselves from period of childhood imitation. it is emphasized that the unlike childhood period, adolescents do not have an anthropomorphic thought of God, they think of God as unparalleled in all things and has no partner. Another feature of this period is scepticism and reanalysis of the thoughts accepted imitatively in childhood. Repentance, regret and return to religion are also emphasized as characteristic features.

In the third part of the article, religious thoughts and behaviors of adolescents and youth are analyzed from an Islamic perspective. Religious thoughts in the youth period are shown with examples from the Qur'an and hadiths which are the main sources of Islam.


***Keywords:*** *adolescence, youth, religion, psychological state, religious thinking and behavior, youth in Islamic aspect*

**Çapa tövsiyə etdi: f.f.d. İ.M.Tağıyeva**